Xalq qəzeti .- 2022.- 6 mart.

# Gənclik ruhu ilə yaşamaq örnəyi

## Professor Nadir İsmayılovun yeni antidepressiya müalicə üsulu dünyada böyük maraq doğurub

***Görkəmli Azərbaycan psixoterapevti, professor, əməkdar həkim Nadir İsmayılovun işləyib hazırladığı depressiyanın səmərəli müalicə üsulu ölkəmizdə uğurla tətbiq olunmaqla yanaşı, son vaxtlar yaxın-uzaq xarici ölkələrdə də böyük maraq doğurub. Nüfuzlu xarici tibbi-elmi jurnallar soydaşımızın bu mövzuda məqalə və şərhlərini həvəslə dərc edir, ona yeni yazılar sifariş verir.***



Elm adamlarının belə fəal yaradıcılığı, adətən, onların gənclik dövrünə, özünütəsdiq və elmi karyeranı genişləndirmək dövrünə təsadüf edir. Bu il 85 yaşı tamam olacaq tibb elmləri doktoru, dünya psixiatriyasında da yaxşı tanınan professor Nadir İsmayılovun belə gənclik həvəsi ilə elmi axtarışlar və tibbi eksperimentlər aparması bir çoxlarına təəccüblü görünsə də, alimin özü insanın həmişəcavanlığını onun psixoloji potensialının tükənməzliyi ilə izah edir.

Nadir müəllim qəti əmindir və bunu öz yaşam düsturu ilə də sübut edib ki, insan bütün yaşlarda gənclik enerjisi və şövqi ilə yaşaya bilər. Bu, ilk növbədə, onun psixoloji-fizionomik sağlamlığı, bundan əlavə, özünə və ətrafdakı sağlam təməllərə möhkəm inamı ilə bağlıdır. Alim belə hesab edir ki, insanın düşüncəsi ölgün, mənəvi aləmi şövqsüzdürsə, o cavan yaşlarında da qocadır. Yəni ruhun cavandırsa– cavan, qocadırsa– qocasan. Nadir müəllim çətin keçmiş uşaqlıq illərində musiqi məktəbinə getmək istəyib, buna imkanı olmayıb– çox sonralar tarda çalmağı öyrənib.Təbabətlə yanaşı, poeziyaya da böyük marağı olub, davamlı elmi axtarışları, pedaqoji və həkimlik fəaliyyəti buna mane olub– professor olandan sonra tələbələr qarşısında peşə sevgisi və elmi-əxlaqi mövzuda çıxışlarını bəzən poeziyanın dili ilə qurmağa çalışıb.

Bütün bunlara görə elmi karyerasını erkən zirvəyə çatdırmış, 40– 45 yaşlarında Azərbaycanın, keçmiş Sovet İttifaqının, Avropa və dünyanın psixiatriya çevrələrində tanınmış, Azərbaycan Psixiatrlar Assosiasiyasını qurmuş, qitə və ümumdünya Psixatrlar assosiasiyalarının rəhbərliyində təmsil olunmuş professor Nadir İsmayılovun çoxillik gərgin fəaliyyətdən sonra ahıl yaşlarında halal haqqı olan dincəlməyə üstünlük verməyib– yorulmadan, gənclik həvəsi ilə elmi axtarışlaını davam etdirməsi, yeni səmərəli müalicə üsulları işləyib hazırlaması heç kəsə təəccüblü görünməsin.

Nadir müəllim son illərdə dünyada artan mənəvi-siyasi, sosial-iqtisadi kataklizmlər səbəbindən “cavanlaşan” və mürəkkəbləşən “qocaman” depressiyaya qarşı məhz gənclik enerjisi və qətiyyəti ilə mübarizəni davam etdirir. Onun bu fəal elmi-tibbi axtarış və tapıntılarının sorağı isə, təbii olaraq, artıq dünyanın o başından gəlir. Kifayət qədər şan-şöhrətə çatmış, bir çox fəxri adlar almış, neçə-neçə kitablar, dərsliklər yazmış, bir neçə ixtirası dünyada qəbul olunmuş soydaşımızın daim öz üzərində işləməsi, elmi qənaətlərini həkimlik təcrübəsində uğurla sınaqdan keçirməsi onun ümumbəşəri bəlalar sırasında yer almış depressiya ilə mübarizədə yeni səmərəli nəticələr əldə etməsi ilə nəticələnib.

Bu yaxınlarda Londonda və Moskvada nəşr olunan dünya şöhrətli elmi jurnallar da bundan xəbər tutub əlüstü Azərbaycan psixoterapevtinin məqalələrini dərc etməyə başlayıb. Xarici mütəxəssislərin diqqətini çəkən bu məqalələrdə depressiya, şizofreniya kimi geniş yayılmış ruhi-əsəb xəstəliklərinin müalicəsinin qeyri-ənənəvi


10-Я ЗОНА ВПА / WPA ZONE 10

Результаты эфферентно-комбинированной терапии больных, страдающих депрессией

Efferent combination treatment results therapy for patients with depression

üsulları ilə müqayisədə Azərbaycan aliminin əldə etdiyi ən yüksək göstərici– 98 faiz səmərəli müalicə şərh edilib.

Məlumat üçün bildirək ki, Nadir İsmayılov 15 yaşında tibb texnikumuna daxil olub, bir neçə il feldşer işləyib. Əsgəri xidmətdən sonra ali təhsil alıb. 1968-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirib, bir neçə il həkim-psixiatr işləyib. 1970-ci ildə isə Tibb İnstitutunun psixiatriya kafedrasında çalışmağa başlayıb. Dərs deməklə yanaşı, şizofreniyanın immunoloji aspektləri ilə məşğul olub. 1973-cü ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyasını müdafiə edib. Onun rəhbərliyi altında 11 namizədlik dissertasiyası hazırlanıb. 1984–1993-cü illərdə respublikanın baş psixiatrı işləyib. Psixiatriyada Qlobal Təşəbbüs Beynəlxalq Təşkilatının üzvü kimi bir neçə layihənin milli koordinatoru olub. Bir çox milli və beynəlxalq mükafat və diplomlarla təltif edilib. “Tibbi psixologiya və psixoterapiya” və “Psixiatriya” kimi dərsliklərlə yanaşı, 200-dən artıq elmi nəşrlərin müəllifidir.

Dünyaca məşhur psixoterapevt Nadir İsmayılov üçün sakit ömür sürmək mənəvi intihara bərabərdir. O, xalqımızın uğurlarına ürəkdən sevinir, dərdlərini-bəlalarını sovuşdurmaq üçün bütün bilik-bacarığını sərf edir. Yadımdadır, keçən əsrin 90-cı illərində Azərbaycan xalqı stress içində olarkən, xəstələrin sayının çoxluğundan o, geniş auditoriyalarda müalicəvi hipnoz seansları keçirir, bir çoxlarını isə fərdi müalicə edirdi. Həm də bu kütləvi müalicə seanslarını tək Bakıda deyil, ölkənin regionlarında da (Naxçıvan, Goranboy, Naftalanda) təşkil edirdi. Ötən illərdə o, saysız-hesabsız qaçqını və məcburi köçkünü ağır psixoloji xəstəlik və ümidsizlik durumundan çıxarıb. Nəhayət, Qarabağda qazandığımız qələbə, doğulub-böyüdüyü Cəbrayılın da düşməndən azad edilməsi Nadir müəllim üçün bütöv bir həyat qədər dəyərli oldu.

Adətən, bir çox elm adamları düşünür ki, uğur qazanandan, məşhurlaşandan sonra gedib özün üçün yaşaya, hətta bizneslə məşğul ola, ya da kıtablarını, diplomlarını başının altına qoub yata bilərsən. Belə düşüncə sahiblərinin az-çox əldə etdiyi uğurları da işləməyən kotan kimi pas tutur, sönmüş ocaq kimi kül basır. Sən demə, onların yazdığı dissertasiyalar elmi dərəcə almaq, vəzifə qazanmaq üçün imiş.

**Belələrinin, xüsusən 40 yaşında həkimlik həddinə çatan tibb aliminin passiv yaşamağa haqqı yoxdur. Professor Nadir İsmayılov ömrünün 85-ci ilində də bu düşüncə və amalla yaşayır. Bu isə onun ikinci gəncliyinə nəfəs verir:**

– Bir çox psixi xəstəliklərin müalicəsində çətinliklər, yəni onların tam müalicə olunmaması tibbin vacib problemlərindəndir. Onlardan biri də əhali arasında tez-tez rast gələn (sağlam insanlarda 15 faizə qədər müşahidə olunan) depressiya xəstəliyidir. Mən uzun illərdi bu xəstəliyin daha səmərəli, müalicəsi üzərində işləyirəm və son bir neçə ildir ki, fərqli bir müalicə növünü tətbiq edirəm. Bu müalicə üsulunun mühüm cəhəti ondan ibarətdir ki, xəstələrin əsas müalicədən əvvəl qanı toksik amillərdən təmizlənir– yeni plazmaforez adlanan üsuldan istifadə olunur. Qan 3-cü dəfə təmizləndikdən sonra orqanizmin immunitetini qaldırmaq üçün autohemoterapiya tətbiq olunur və paralel olaraq, antidepressantlardan və vitaminlərdən istifadə olunur.

Göstərilən bu üsulu tətbiq etməklə xəstələrin 98 faizində ciddi yaxşılaşma və tam sağalma müşahidə edilir. Qeyd edilən müalicə üsulunun səmərəliliyini Almaniyadan Bakıya gəlmiş bir professorla müzakirə edərkən o dedi: “Almaniyada və bütün Avropa ölkələrində depressiyaları qəbul olunmuş klassik üsulla– yəni antidepressantlar tətbiq etməklə müalicə edərkən 50 faiz müsbət nəticə əldə olunur”.

Bu söhbətdən sonra mən 450 xəstə üzərində aldığım nəticələri elmi məqalə şəklində Moskva jurnallarının birində çap etdirmək qərarına gəldim. Məqalə dərhal nəşr olundu. Az sonra Avropanın müxtəlif ölkələrindən (İngiltərə, Macarıstan, Çexiya) mənə təkliflər gəldi. Mənim razılığımdan sonra məqalə 2021-ci ildə Londonda “Psichology and psixiatry” jurnalının 5-ci sayında da dərc olundu. Bu hadisədən sonra Moskva və İngiltərədən mənim məqaləmi çap edən jurnalların redaktorlarından yeni təkliflər gəldi.

Xarici elmi jurnallar məndən yeni məqalələr göndərməyimi istəyirlər. “Psixi xəstəliklərin diaqnostikasında obyektiv müayinə üsullarından istifadə haqqında” məqalə üzərində işləyirəm. Həmkarlarım, dostlarım mənə deyirlər ki nə üçün özünü əziyyətə salırsan, sənin elmi məqalələr yazmağa ehtiyacın yoxdur. Mən isə bunların həkimlik borcundan və daxili tələbatdan irəli gəldiyini deyirəm. İlhamım gələndə şeir yazmağımın, tarda çalmağımın da səbəbi qarşısıalınmaz mənəvi tələbat– gənclik həvəsi ilə yaşamaq və insanları da buna çağırmaqdır. Mən hamıya deyirəm: “Heç vaxt bacarmaram, yoruldum, qocaldım deməyin!”.

***Fazil ABBASOV,***
***İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri, yazıçı-publisist***